



# Boz dağın qoynunda bir şəhər vardır...



**Təxminən, 20 il bundan əvvəl Mingəçevir haqqında hazırladığım qəzet materiallarına belə bir sərlövhə vermişdim: "Boz dağın qoynunda bir şəhər vardır..." Səhərisi gün bir tələbə yoldaşım zəng vurub mənə deyəndə ki, Səməd Vurğunu təhrif etmisən, doğrusu, təəccübləndim. "Bəs şair necə yazıb?" – soruşdum. "Boz dağın qoynunda bir dəniz vardır", – dedi. Tələbə yoldaşım haqlı idi. Amma, fikirləşdim ki, Səməd Vurğun bunu yazanda dəniz var idi, şəhər yox. Daha doğrusu , şəhər yenicə salınırdı. Məni qınamayın, "Muğan" poeması indi yazılsaydı, əminəm ki, elə mən deyən kimi olardı.**

Bilmirəm, Mingəçevirdə sonuncu dəfə nə vaxt olmusunuz. Bu şəhərin gözəlliyindən inanın ki, doymaq olmur. Energetiklər şəhəri hər gün yox, hər saat dəyişir. Eşq olsun bu gözəlliyi yaradanlara.

Bu yaxınlarda jurnalist həmkarlarımla bir xeyli söhbət etdik. Hamısı həvəslə, qürur hissi ilə danışdı. Şəhər icra hakimiyyətinin başçısı – bütün həyatını Mingəçevirlə bağlamış İlham İsmayılovun gördüyü işlərdən söhbət açdılar. Bildirdilər ki, hər həftə şəhərin hansısa məhəlləsində sakinlərlə görüş keçirilir. Onların qayğıları, problemləri ilə maraqlanır. İcra başçısı şəhərə və sakinlərin həyatına elə yaxından bələddir ki, istənilən görüşə gedəndə onların nə xahiş edəcəyini əvvəlcədən bilir. Məhz bu diqqətin və təşəbbüsün nəticəsidir ki, son 6 ayda şəhərdə 17 "nümunəvi məhəllə" salınıb.

Odur ki, şəhər rəhbərini hara getsə öz doğmaları, əzizləri kimi qarşılayırlar. Ona yaxınlaşıb problemlərini, ürək sözlərini çox rahatlıqla deyirlər.

Bu gün Boz dağın qoynundakı gözəl və abad şəhərdə hayana, hansı küçəyə baxsan, tikinti, quruculuq, abadlıq işlərinin davam etdiyini görürsən, inkişaf və tərəqqinin şahidi olursan. İlin əvvəlindən bəri "Dostluq" parkında əsaslı yenidənqurma işlərinə start verilib. Şəhidlər xiyabanında "20 Yanvar" abidə kompleksi yenidən qurulub. Kompleksin yerləşdiyi meydanın ətrafına müasir tamet tavalar düzülüb, səkinin üstü, pilləkənlər yenilənib, bordürlər qoyulub. Yaşıllıq zolaqlarının yan divarlarına aqlaylar düzülüb. Yeni Azərbaycan Partiyasının və şəhər icra hakimiyyətinin inzibati binalarının qarşılarına tamet örtük döşənib. "Nəriman Nərimanov" və "Naxçıvan" küçələrində binaların fasadları rənglənir, ümumi istifadə yerləri əsaslı təmir olunur, binalara giriş qapıları quraşdırılır.

Yaşayış massivlərində görülən abadlıq işlərinin həcminə baxın. Azərbaycan İstilik Elektrik Stansiyası yaşayış massivində – Cəmil Əliyev küçəsindəki 9 mərtəbəli 4 binanın, Naxçıvan küçəsində 9 mərtəbəli 1 binanın, sol sahil yaşayış massivində Vaqif Abdullayev küçəsində 9 mərtəbəli 2 binanın dam örtükləri əsaslı təmir olunub. Sol sahildə şəhərin ən böyük yaşayış sahəsi olan 127-ci məhəllədə əsaslı yenidənqurma və bərpa işləri davam edir.

Təbriz, Züleyxa Həsənova, Nəriman Nərimanov və Naxçıvan küçələrində 7452 metr uzunluğunda beton səki daşları quraşdırılıb, 49 min kvadratmetr sahəyə yeni asfalt örtük salınıb və bu işlər davam etməkdədir. Onsuz da yaşıllıqlar içində olan Mingəçevirdə son altı ayda şəhərin müxtəlif küçə və parklarında 2010 ədəd müxtəlif növ ağac, 5450 ədəd həmişəyaşıl kol, 1900 ədəd primula çiçəyi əkilib.





Bir dəfə yazmışdım ki, Mingəçevirə çatanda Gülövşə adlı bir kənd var. Mən bilmirəm, bu gülövşənin gülövşə nar sortuna aidiyyəti var, yoxsa yox. Amma onu bilirəm ki, Mingəçevir narı sözünün işığa birbaşa dəxli var. Deməli, işıq şəhərində bu, xüsusi diqqət mərkəzindədir. Təkcə bu il 136 ədəd yeni işıq şəbəkəsi qurularaq istismara verilib, işıqlandırma şəbəkəsinin kabelləri dəyişdirilərək yeniləri ilə əvəz edilib. Həmçinin şəhər icra hakimiyyətinin qarşısında günün tələblərinə cavab verməyən işıqlandırma sistemi sökülərək yeni, müasir dizaynlı işıqlandırma sistemi ilə əvəz olunub. 74 saylı yaşayış məhəlləsi, "Az.İES" yaşayış massivində yaradılan nümunəvi məhəllə tam, 127 saylı məhəllə isə qismən işıqlandırılıb. Məhəllənin digər hissəsinin də işıqlandırılması üçün müvafiq hazırlıq işləri aparılır.

Şəhər icra hakimiyyəti başçısı aparatının 6 aylıq fəaliyyəti barədə ŞİH başçısının müavini Hikmət Kərimovla söhbət zamanı öyrəndik ki, Energetiklər qəsəbəsində abadlıq-quruculuq işləri genişləndirilib. Naxçıvan və Cəmil Əliyev küçələrində bordürlər dəyişdirilib. Sağ sahildə abadlıq-quruculuq işləri davam edib. Təbriz küçəsinin hər iki tərəfində yeni həmişəyaşıl ağaclar və dekorativ kollar əkilib, səkilərin bərbad yerlərinə asfalt örtük salınıb, istinad divarlarında suvaq işləri və rənglənmə aparılıb.

Züleyxa Həsənova küçəsindən qəbiristanlığa gedən yolda səkilər yenidən qurulub. 127-ci məhəllədə genişmiqyaslı təmir-abadlıq işləri görülüb. Məhəllədaxili yollara səkilər salınıb, asfaltlanma işləri aparılıb. 20 Yanvar küçəsi ilə Aydın Məmmədov küçəsinin kəsişdiyi ərazidə fəvvarə kompleksi müasir dizaynla yenidən tikilərək sakinlərin istifadəsinə verilib.

Görürsünüzmü nə qədər iş görülüb. Saymaqla qurtaran deyil. Qəsəbənin Yadigar Mansurov küçəsindəki 9, 11, 13,15 saylı və Naxçıvan küçəsindəki 42 saylı yaşayış binalarının qarşısında nümunəvi məhəllə yaradılıb. Binaların fasad hissələri rənglənib, girişlər əsaslı təmir olunub, müasir pəncərə və şüşəbəndlər qoyulub.








Bugünlərdə şəhər icra hakimiyyətinin başçısı abadlıq-quruculuq işlərinin gedişi ilə yaxından tanış olanda biz jurnalistləri də ora dəvət etmişdi.

Həmin gün jurnalistlərə bildirildi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Mingəçevirdə abadlıq və quruculuq işləri durmadan davam edir. Şəhərin sağ və sol sahillərində, Energetiklər qəsəbəsində və eləcə də bir sıra digər yaşayış massivlərində kompleks işlər görülməkdədir. Naxçıvan küçəsində aparılan abadlıq-quruculuq işləri isə daha əhatəlidir. Bir neçə aydır ki, burada səkilərə bordürlərin düzülməsi, piyadaların gediş-gəliş yollarının qaydaya salınması, yaşayış binalarının və sahibkar obyektlərinin qarşısına ağacların və gül kollarının əkilməsi, yeni istirahət sahələrinin salınması uğurla davam etdirilir.

Həmin gün şəhər icra hakimiyyətinin başçısı, aparatın məsul şəxsləri, ictimaiyyət nümayəndələri, mənzil-kommunal təsərrüfatı kombinatının rəhbərliyi və işçiləri, eləcə də KİV nümayəndələri Naxçıvan küçəsində həyata keçirilən abadlıq-quruculuq işlərinin son mərhələsi – asfaltın döşənməsi ilə tanış oldular. İcra hakimiyyətinin başçısı açılış mərasimində bildirdi ki, bu yola asfalt salınması işinə hazırlıq məqsədi ilə "Azərsu", "Azəriqaz" xidmət sahələrinin rəhbərləri ilə aparılan söhbətlərdən sonra tamamlanma işləri həyata keçirilib. Küçə boyunca, sağ və sol tərəflərdə yaşıllıq zolaqlarının artırılması üçün xidmət sahələrinə, xüsusilə mənzil-kommunal təsərrüfatı kombinatının rəhbərliyinə xüsusi tapşırıqlar verilib.

İcra başçısı görüşdə iştirak edən sakinləri maraqlandıran bir sıra suallara da konkret cavablar verdi. Əlaqədar sahə rəhbərlərinə tapşırıqlarını çatdırdı. Bununla yanaşı, ərazidə abadlıq-quruculuq işləri ilə tanışlıq zamanı qarşıya çıxan çatışmazlıqların aradan qaldırılması barədə müvafiq strukturların rəhbərlərinə göstərişlərini də verdi.

Təbii ki, bütün bunların vəzifə borcundan irəli gəldiyini, dövlət başçısının tapşırıqlarının yerinə yetirilməsi məsuliyyətindən yarandığını söyləyənlər də tapıla bilər. Ancaq rəsmi olmayan, heç yerdə yazılmayan borclar da var ki, onlar əhali tərəfindən daha yüksək qiymətləndirilir. Bir faktı yada salmaq istəyirəm. Bir dəfə şəhər icra hakimiyyəti başçısına zəng vurub bir faktı dəqiqləşdirmək istəyirdim. Telefon cavab vermədi. Köməkçidən soruşdum. Dedim ki, başçı 1993-cü ildə Ağdərədə şəhid olmuş Aydın Aşurovun anası Qalina xanım vəfat edib, onun dəfnindədir. Bu isə tamamilə başqa bir insani keyfiyyət idi. Yadıma Şəhid Anaları İctimai Birliyinin sədri İranə Həsənovanın dedikləri düşdü: "Belə faktları çox sadalaya bilərəm. Həmişə diqqət görmüşük".

...Adətən, bu qəbildən olan yazıların sonunda hansısa təbiət gözəlliyindən, lirik, duyğusal hisslərdən söhbət açırlar. Mingəçevir haqqında olan yazıda isə Kür çayından istədiyin qədər yaza bilərsən. Amma, bu qeydlərimi sırf siyasi məzmunla tamamlamaq istərdim. Bu il mayın 21-22-də Mingəçevirdə Avropa İttifaqına üzv ölkələrin nümayəndə heyəti ilə görüş keçirilmişdi. Məlum Şərq Tərəfdaşlığının 10-cu ildönümünə həsr olunmuş Avropa günlərinin Mingəçevirdə də qeyd olunması şəhərin bütün sakinlərində məmnunluq hissi yaratmışdı. Hara baxsan, "Avropa günləri Mingəçevirdə – 21-22 may 2019-cu il" lövhəsi görünürdü.

O zaman mən qeyd dəftərçəmə yazmışdım: "Avropa günləri Boz dağın qoynunda". Həqiqətən, bu gün Boz dağın qoynunda ... cahcəlal vardır. Gəlin, baxın, şahidi olun.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***